# ‘‘Forum Perio & Endodontika’’

## 05.02.2023

**Pullman Baku Hotel**



## Azərbaycan Parodontologiya Cəmiyyətinin Elmi-Praktik Simpoziumu

limon dental | PERIOAZ AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ | Eighteeth | FANTA DENTAL

www.limondental.com  055 630 77 91  www.perio.az

**‘‘Forum Perio & Endodontika’’**
**Azərbaycan Parodontologiya Cəmiyyətinin Elmi-Praktik Simpoziumu**
05.02.2023, Pullman Baku Hotel

*Proqram*

| | |
|---|---|
| **08:30 - 09:30** | *Qeydiyyat* |
| **09:30 - 10:00** | *Açılış* |
| **10:00 - 11:00** | ***Moderator:*** *Məhəmməd Məmmədli*<br>***Endodontik-parodontal zədələnmələrin diaqnostikası və müalicəsi***<br>*Cavid Əhmədbəyli - Həkim-parodontoloq, Tibb üzrə fəlsəfə doktoru, Azərbaycan* |
| **11:00 - 12:00** | ***Kök kanallarının instrumentasiyası haqqında bilməli olduğunuz hər şey. Müasir protokollar və faydalı məsləhətlər***<br>*Nəriman Cabbarlı - Həkim-endodont, Almaniya* |
| **12:00 - 12:30** | *Çay Fasiləsi* |
| **12:30 - 13:30** | ***Moderator:*** *Nəriman Cabbarlı*<br>***Kök kanallarının kimyəvi təmizlənməsi və 3D obturasiyası***<br>*Məhəmməd Məmmədli - Həkim-endodont, Tibb üzrə fəlsəfə doktoru, Almaniya* |
| **13:30 - 14:30** | *Nahar Fasiləsi* |
| **14:30 - 15:30** | ***Moderator:*** *Cavid Əhmədbəyli*<br>***Periapikal patologiyaların konservativ müalicəsi***<br>*Zaur Mustafayev - Həkim-stomatoloq, Azərbaycan* |
| **15:30 - 16:00** | *Çay Fasiləsi* |
| **16:00 - 18:00** | ***Kök kanallarının instrumentasiyasının və obturasiyasının müasir tətbiqi qaydaları (Nəzəri & Praktik hissə)***<br>*Nəriman Cabbarlı - Həkim-endodont, Almaniya* |
| **18:00 - 18:30** | *Simpoziumun bağlanışı* |

limon denta
PERIOAZ Azərbaycan Parodontologiya Cəmiyyəti
Eighteeth
FANTA DENTAL

10:00-11:00



## Cavid Əhmədbəyli

Həkim-parodontoloq, Tibb üzrə fəlsəfə doktoru, Azərbaycan

Cavid Əhmədbəyli 2005-ci ildə Türkiyənin Yeditepe Universitetinin stomatologiya fakültəsindən məzun olmuşdur. Həmin universitetdə diplom sonrası təhsilini və tədqiqatlarını davam edərək 2011-ci ildə Avropa Parodontologiya Federasiyasının Parodontologiya və İmplantologiya üzrə ixtisaslaşmış mütəxəssis, 2013-cü ildə isə Türkiyə Respublikası Səhiyyə Nazriliyi tərəfindən Parodontologiya ixtisası üzrə uzmanlıq diplomları verilmişdir. 2012-ci ildə Yeditepe Universitetinin parodontologiya kafedrasında «İncə biotipli çoxsaylı diş əti çəkilmələrin taca istiqamətlənmiş dilimlə təkbaşına və ya hüceyrəsiz dermal matrisa membranı ilə birlikdə cərrahi müalicəsi» mövzusunda doktorluq dissertasiyanı müdafiə etmişdir. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti və Estetik Diş stomatoloji klinikasında həkim-parodontoloq vəzifələrində çalışır. Dişlər & implantlar ətrafında diş əti xəstəliklərinin qeyri-cərrahi müalicəsində antimikrob və probiotik vasitələrinin tədbiqi; reqenerativ və estetik plastik parodontoloji cərrahiyyəsi üzrə tədqiqatları yerli və beynəlxalq elmi konfranslarda təqdim olunub və nüfuzlu jurnallarda nəşr olunub. 60 elmi əsərin müəllifidir. Azərbaycan Parodontologiya Cəmiyyətinin prezidentidir. Azərbaycan Parodontologiya Cəmiyyətinin (PERIOAZ), Türkiyə Parodontologiya Cəmiyyətinin (TPD), Avropa Parodontologiya Federasiyasının (EFP), Beynəlxalq Parodontologiya Akademiyasının (IAP), Beynəlxalq Implantoloqlar Birliyinin (ITI), Stomatoloji Tədqiqatlar Beynəlxalq Akademiyasının (IADR) fəal üzvüdür. Azərbaycan, türk, ingilis və rus dillərini sərbəst bilir.

## Endodontik-parodontal zədələnmələrin diaqnostikası və müalicəsi

Endodontik-parodontal zədələnmələr dişin pulpa və parodont toxumalarında iltihabi xəstəliklərin eyni anda müşahidə olunması ilə xarakterizə olunur. Pulpa toxumasında kariyes mənşəli infeksiya ikincil infeksiyaya səbəb olaraq parodontun dəstək toxumalarının itkisi ilə nəticələnə bilər. Bunun əksinə, ağır dərəcəli parodont xəstəlikləri isə pulpa toxumasında iltihablı dəyişiklikləri başlada və ya şiddətləndirə bilər. Bu kimi zədələnmələrin mürəkkəblik səviyyəsini nəzərə alaraq, müvafiq düzgün müalicənin təmin edilməsi üçün endodontik və parodontal xəstəliklərin differensial diaqnostikasının aparılması həyati əhəmiyyət kəsb edir. Endodontik-parodontal zədələnmələrin diaqnostikasında və kompleks müalicəsində uğurlu nəticələrin əldə olunması üçün stomatoloq, parodontoloq və endodontiya mütəxəssisinin sıx əməkdaşlığı böyük əhəmiyyət kəsb edir. Mühazirə sırasında endodontik-parodontal zədələnmələri olan insanlarda parodont xəstəliklərinin diaqnostikası, qeyri-cərrahi və cərrahi müalicəsi haqqında ətraflı məlumat veriləcəkdir.

limon denta PERIOAZ AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ Eighteeth FANTA DENTAL

**11:00-12:00**



## Nəriman Cabbarlı

*Həkim-endodont, Almaniya*

Nəriman Cabbarlı 2009-cu ildə Azərbaycan Dövlət Tibb Universitetinin stomatologiya fakültəsindən məzun olmuşdur. 2010-cu ildə Abşeron Rayon Mərkəzi Xəstəxanasında internatura təhsilini bitirmişdir. Diplom sonrası təhsilini davam etmək və elmi tədqiqatlar ilə məşğul olmaq üçün 2010-cu ildə Alman Akademik Mübadilə Xidmətinin (DAAD) təqaüdünü alıb Almaniyanın Frayburq şəhərinin universitet klinikasında üz-çənə cərrahiyyəsi bölümündə çalışmağa başlamışdır. "Trixolemmal karsinoma" və "skuamöz hüceyrəli karsinoma" barəsində elmi işlərdə iştirak etmişdir. 2013-cü ildə Berlin şəhərinin Çarite Universitetinin Klinikasında Parodontologiya, Ortopedik Stomatologiya, Endodontiya bölümlərində ixtisasartırma təcrübəsi keçmişdir. 2014 – 2019-cu illərdə Oraninburq, Lepziq və Osthofen şəhərlərində müxtəlif özəl stomatoloji klinikalarda çalışmışdır. 2020-ci ildən bəri Manhaym şəhərində "Zahnarztpraxis an den Planken" adlı klinikanın həm-təsisçisi və mütəxəssis stomatoloqudur. Endodontiya üzrə ixtisasçı titulunu qazanıb. Almaniya Endodontlar və Dental Travmatoloqlar Cəmiyyətinin (DGET), Alman Restorativ və Regenerativ Stomatologiya Cəmiyyətinin (DGR²Z), Alman Diş və Ağız Təbabəti Cəmiyyətinin (DGZMK), Alman Konservativ Stomatologiya Cəmiyyətinin (DGZ) üzvüdür. Azərbaycan, Alman, Türk, İngilis, Rus dillərini sərbəst bilir.

## Kök kanallarının instrumentasiyası haqqında bilməli olduğunuz hər şey. Müasir protokollar və faydalı məsləhətlər.

Tədbirdin nəzəri və praktik hissələrində endodontiyada köməkedici alətlər və onların vacibliyi binokulyar və mikroskopların növləri, kofferdamın taxma qaydaları, dişin pre-endodontik bərpası, saxlanılması mümkün oluna bilən dişlərin kritik proqnozlaşma müzakirəsi, kök kanalların anatomik xüsusiyyətləri, mürəkkəb kanalların tapılması və bu yolda köməledici alətlər, mexaniki instrumentasiya və incəliklər, dar kanalların açılması, resiprok və rotasion fayllar və onların xüsusiyyətləri, kimyəvi instrumentasiya, müasir protokollar, yuyucu mayələrin aktivasiyası, təkrar endodontik müalicə və müxtəlif halların müzakirələri aparılacaqdır.

12:30-13:30



## Məhəmməd Məmmədli

Həkim-endodont, Tibb üzrə fəlsəfə doktoru, Almaniya

Məhəmməd Məmmədli 2006-2011-ci illərdə Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsində təhsil almışdır. 2011-2012-ci illərdə Almaniyanın Ludviq-Maximilian Münxen Universitetinin Konservativ Stomatologiya və Parodontologiya şöbəsində internatura təhsilini almışdır. 2017-ci ildə Almaniya Endodontiya Cəmiyyətinin nəzdində diplomsonrası ixtisasartırmadan keçərək, "Board Certified Endodontist" diplomunu almışdır. 2013-2018-ci illərdə həmin universitetinin Konservativ Stomatologiya və Parodontologiya şöbəsində rezidentura təhsilini almışdır və Almaniya Endodontiya Cəmiyyəti tərəfindən Endodontiya mütəxəssisi diplomu verilmişdir. 2015-ci ildən dünyanın ikinci ən böyük Endodontiya Cəmiyyəti olan Avropa Endodontiya Cəmiyyətinin həqiqi üzvlüyünə qəbul edilmiş və "17th (Brussels Belgium) and 19th (Vienna, Austria) Biennial Congress of the European Society of Endodontology"-də mühazirələr oxumuşdur. 2017-ci ildən Ludviq-Maximilian Münxen Universitetinin Konservativ Stomatologiya və Parodontologiya şöbəsində çalışmaqla yanaşı, "AllDent Zahnzentrum" özəl stomatoloji klinikasında həkim-stomatoloq və endodontiya mütəxəssisi vəzifəsində çalışmışdır. 2018-ci ildən "Dental Team Dr.Hajto" özəl stomatoloji klinikasının endodontiya şöbəsini təsis etmişdir qurmuş və 2022-ci ilə qədər həmin şöbəyə rəhbərlik etmişdir. 2015-2022-ci illər tarixində Azərbaycanda və Münxen şəhərində Endodontiya sahəsi üzrə mühazirələrlə çıxış etmişdir. 2022-ci ildə akreditasiyadan keçərək Avropa Endodontiya Cəmiyyəti tərəfindən "Board Certified Endodontist" adına layiq görülmüşdür. Quintesence nəşriyyatı olan" Endodontie" və "Kieferorthopa die" jurnallarında birinci müəllif olmaqla elmi məqalələri dərc olunmuşdur. Almaniya Endodontiya Cəmiyyəti (DGET), Avropa Endodontiya Cəmiyyəti (ESE), Amerika Endodontiya Cəmiyyəti (AAE), Almaniya Diş Həkimləri Cəmiyyəti (DGZ), Almaniya Ağız, Üz-Çənə Cərrahiyyəsi Cəmiyyətinin (DGZMK) üzvüdür. Azərbaycan, türk, rus, ingilis, alman dillərini mükəmməl bilir.

## Kök kanallarının kimyəvi təmizlənməsi və 3D obturasiyası.

Dişlərin kök kanalları ilə əlaqədar görülən bütün prosedurlar çox vacib və bir-biri ilə əlaqəlidir. Bu vacib hissələrdən biri irriqasiya və obturasiyadır. Irriqasiya məhsullarının düzgün seçilməsi və həmin məhsulların dentin-pulpa kompleksinə təsiri, həmçinin kanallarda yerləşən bakteriaları və biofilmi uzaqlaşdırmaq qabiliyyəti çox önəmlidir. İrriqasiya məhsullarının səs və ultrasəs alətləri kök kanalında aktiv və passiv istifadə olunma protokolları müalicənin effektiv bitməsinə birbaşa təsir edir. Bakteriaların kök kanalı sistemindən müasir alətlərlə mümkün qədər uzaqlaşdırıldıqdan sonra kök kanalının hermetik bağlanması tələb olunur. Bunun üçün bugünün ən hermetik və tədqiqatlarla dəfələrlə sübut olunmuş 3D formatında obturasiya üsulundan istifadə edilir. Tədbirin nəzəri və praktik hissələrində kök kanallarının müasir üsullarla təmizlənməsi və obturasiyası haqqında geniş məlumat verilməklə yanaşı istifadə qaydaları da göstəriləcəkdir.

limon denta PERIOAZ AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ Eighteeth FANTA DENTAL

14:30-15:30



## Zaur Mustafayev

Həkim-stomatoloq, Azərbaycan

Zaur Mustafayev 1999-cu ildə Azərbaycan Tibb Universitetinin stomatologiya fakultəsini bitirmişdir. 1999-2000-ci illərdə Bakı şəhərində 8 saylı stomatoloji poliklinikasında internatura keçmişdir. 2000-2002-ci illərdə hərbi xidmətdə olmuşdur- tibb xidməti baş leytenantıdır. 2002-2012-ci illərdə Bakı şəhəri 8 saylı stomatoloji poliklinikasında, 2012-2016-ci illərdə “VİMAY” tibb mərkəzində həkim-stomatoloq kimi çalışmışdır. 2016-cı ildən “Dental Concept” həkim-stomatoloq vəzifəsində klinikasında fəaliyyət göstərir. 2017-ci ildən mütəmadi olaraq "Effektiv endodontiyanın əsasları", "Kök kanallarının işlənilməsinə dair praktik məsləhətlər", "Endodontiyanın mikrobioloji əsasları", "Kök kanallarının xemomexaniki işlənməsinin müasir aspektləri", "İsti vertikal kompaksiya obturasiya texnikası" mövzularında seminar və master-klasslar keçirir.

## Periapikal patologiyaların konservativ müalicəsi.

Tədbirdə mikrobioloji nöqteyi-nəzərdən endodontik müdaxilənin məqsədi, mürəkkəb anotomik və morfoloji problemlər, dentinin mürəkkəb quruluşunun infeksiyalaşmada rolu, kök kanallarının birincili və ikincili infeksiyası, simptomatik və asimptomatik periodontitlərin kliniki halların üzərində müalicə protokolları, periapikal toxumaların bərpası üçün potensial mexanizm kimi kalsium hidroksidin istifadəsi, hermetik koronal restovrasiya - endodontik müalicənin proqnozunu təyin edən faktorlar ətraflı müzakirə olunacaq.

limon denta
PERIOAZ AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ
Eighteeth
FANTA DENTAL